# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 09 (2016) 06 mart 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiymət: 50 qəpik


# Şəhidlik zirvəsinə ucalan qəhrəman ömrü

## AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI ETİBAR FİRUDDİN OĞLU HACIYEVİN ŞƏRƏFLİ HƏYAT YOLU

**1992-ci il Azərbaycan tarixində dönməz izlər qoymuş ağır dövrlərdən biri kimi xatırlanır. Bu illərdə torpaqlarımızın müdafiəsi üçün göstərilən qəhrəmanlıqlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin əyani sübutudur. O dövrdə ön sıralarda olan qəhrəmanlardan biri də Etibar Firuddin oğlu Haciyev olmuşdur. Onun həyat yolu sadə vətəndaş ömründən qəhrəmanlıq zirvəsinə yüksələn şərəfli bir yolun təcəssümüdür.**

**O, Vətənə sədaqəti, hərbi peşəkarlığı və müharibədə göstərdiyi şücaət ilə xalqın yaddaşında əbədi yer tutmuş qəhrəmanlardan biridir. Qəhrəmanımız vətənpərvər ruhda böyüyüb, gənc yaşlarından torpağa, el-obaya bağlılığı ilə seçilib. Ölkəmizin taleyüklü dövründə - Ermənistan-Azərbaycan münaqişəsinin ən gərgin çağlarında o, tərəddüd etmədən Vətənin müdafiəsinə qalxıb. Bu seçim onun həyatının ən müqəddəs qərarı idi.**



Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Etibar Firudin oğlu 5 aprel 1971-ci ildə Qərbi Azərbaycanın Vardenis rayonunun Zod kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra bir müddət sovxozda işləyib. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər 1988-ci ildə orada yaşayan azərbaycanlıları öz dədə-baba yurdlarından qovduğu zaman Etibar ailəsi ilə birlikdə Kəlbəcər rayonuna pənah gətirib. Orta təhsilini başa vurduqdan sonra hərb sənətinə marağı onu Silahlı Qüvvələrin sıralarına gətirib çıxarıb.



Etibar Perm vilayətində hərbi xidmətini başa vurduqdan sonra ailəsinin məskunlaşdığı Xanlar rayonuna gəlir. Öz dədə-baba yurdlarından zorla qovulması onda ermənilərə qarşı dərin nifrət hissi oyatmışdı. Hər zaman mənfur düşməndən qisas almaq barədə düşünürdü.

O, peşəkar hərbi təhsil alaraq zabit kimi formalaşıb, xidmət etdiyi illər ərzində yüksək intizamı, döyüş hazırlığı və təşkilatçılıq bacarığı ilə seçilib. Silahdaşları arasında prinsipial, tələbkar və eyni zamanda qayğıkeş komandir kimi tanınıb. Cəbhə bölgəsində xidmət etdiyi müddətdə Etibar Hacıyev öz cəsarəti, qətiyyəti və döyüş yoldaşlarına mənəvi dayaq olması ilə seçilib. Ən çətin məqamlarda belə geri çəkilməyib. Onun döyüş yolu Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan ağır və qanlı mübarizənin bir parçasıdır. Hər bir əməliyyatda göstərdiyi iradə, qorxmazlıq və Vətən sevgisi onu silahdaşlarının gözündə əsl liderə çevirib.

Etibar Haciyev Ağdərə-Kəlbəcər istiqaməti, Laçın dəhlizi ətrafında müdafiə mövqeləri, Xocavənd və ətraf yüksəkliklər uğrunda döyüşlərdə fəal iştirak edib, Böyük Canbar, Kiçik Canbar, Buzlaq, Erkəc kəndlərinin düşmən tapdağından azad edilməsində xüsusi fədakarlıq göstəribdir. 1992-ci il iyun ayının 15-də Goranboy rayonunda Ağcakənd kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olur. Lakin göstərdiyi şücaət xalqın yaddaşında əbədi iz salır. Onun ölümü fiziki sonluq olsa da, mənəvi baxımdan bir başlanğıc - qəhrəmanlıq simvolunun doğuluşu idi.

Silahdaşlarının xatirələrinə görə, o, kəşfiyyat xarakterli tapşırıqların yerinə yetirilməsində, strateji yüksəkliklərin müdafiəsində və şəxsi heyətin təhlükəsiz yerlərə çıxarılmasında xüsusi şücaət göstərib.

Ən çətin məqamlarda belə geri çəkilməyən, yaralı döyüş yoldaşlarını döyüş meydanından çıxaran Etibar hər zaman igidliyi ilə seçilib. Onun iştirak etdiyi əməliyyatlardan birində düşmənin canlı qüvvə və texnikasına ciddi zərbə endirilib.

Azərbaycan Respublikasının müvafiq sərəncamı ilə Etibar Firuddin oğlu Hacıyevə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Bu ali ad onun göstərdiyi igidliyin dövlət səviyyəsində təsdiqi, xalqın isə minnətdarlıq ifadəsidir. Onun xatirəsi əbədiləşdirilib, adı müxtəlif xatirə lövhələrində, tədbirlərdə və vətənpərvərlik mövzulu çıxışlarda ehtiramla anılır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində belə qəhrəmanların həyatı xüsusi yer tutur. Qəhrəmanımızın həyatı bir daha sübut edir ki, vətən sevgisi insanı ən uca zirvəyə - əbədiyyətə qovuşdurur. Onun ömrü qısa olsa da, mənəvi çəkisi böyükdür.

2020-ci ilin payızında başlayan 44 günlük Vətən Müharibəsi 1992-ci ilin qəhrəmanlıq məktəbini xatırladan bir döyüş meydanı oldu. Etibar Hacıyevin ideallarını yaşadan igid oğullarımız, torpaqlarımızın azadlığı uğrunda cəsarətlə döyüşdülər. Onlar göstərdilər ki, vətənpərvərlik ruhu nəsillər boyu davam edir və hər dövrün qəhrəmanları öz fədakarlığı ilə tarix yazır. 44 günlük müharibədə iştirak edən igidlər atasından və babasından miras qalmış qəhrəmanlıq hissini yaşadaraq gələcək nəsillərə örnək oldular. Bu bir daha göstərir ki, Azərbaycanın müstəqilliyi və torpaqlarının qorunması üçün nəsillər boyu davam edən qəhrəmanlıq ruhu mövcuddur.

Milli qəhrəman Etibar Hacıyev yalnız keçmişin qəhrəmanı deyil, həm də bu günün və gələcəyin qəhrəmanlarını ruhlandıran simvoldur.


*Nuranə NƏCƏFOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi-işçisi*